

# DÖVLƏTƏ BAĞLILIĞIN ÖNƏMİ

HARUN YƏHYA



# DÖVLƏTƏ BAĞLILIĞIN ƏHƏMİYYƏTİ

HARUN YƏHYA

# İÇİNDƏKİLƏR

*Niyə dövlət haqqında bir kitabça?* ........................ 5

*Dövlət nədir?* ........................ 8

*Azərbaycan Respublikasının dövlət quruluşunun xüsusiyyətləri* .. 21

*Problemlərin dövlətə bağlılıqla həlli* ........................ 27

*Dövlətə bağlılıq və əxlaq* ........... 30

# NİYƏ DÖVLƏT HAQQINDA BİR KİTABÇA?

Dövlət sisteminin əhəmiyyətini, vəzifələrini və ya funksiyalarını açıqlayan kitablar, ümumiyyətlə, siyasət elmləri kitablarıdır. Bu kitabların əksəriyyəti tələbələrə məlumat vermək məqsədi daşıyır. Amma əlinizdəki bu kitabça bunlardan fərqlidir. Çünki əsas məqsədi cəmiyyətdə bir qisim "dövlət əleyhinə" cərəyan və ya fikirlərin yanlışlıq içində olduqlarını göstərmək və millətimizin hər üzvünü dövlətinə sahib çıxmağa çağırmaqdır.

Haqqında danışdığımız dövlət əleyhinə cərəyan və ya fikirlər müxtəlif qaynaqlardan gəlir. Bu qaynaqların başında marksist ideologiya durur. Bu ideologiyaya bağlı olanlar dövlətin zərərli bir qurum olduğuna kor-koranə inanıblar. Buna görə, dövlət və dövləti təmsil edən hər cür simvola qarşı düşmən mövqeyindədirlər. Bu düşmənçilik bəzən zorakılığa da çevrilir və sol terror təşkilatlarını əmələ gətirir.

Digər tərəfdən, marksist ideologiyadan çox təsirlənmiş bir qrup ziyalılar bu gün marksizmi tərk etdiklərini söyləsələr də, buna bənzər bir yolu davam etdirirlər. Həmin ziyalılar, ümumiyyətlə, "68 nəsli" kimi tanınan solçu hərəkatın bugünkü nümayəndələridir. Keçmiş marksist

dövrlərin bitdiyini və hətta liberal olduqlarını desələr də, marksizmin dövləti düşmən kimi göstərən təlqinlərinin təsirlərini hələ də daşıyırlar.

Bu marksist mənşəli ziyalılara paralel olaraq cəmiyyətdəki bəzi sektorlar demokratiya anlayışını səhv anlayaraq dövlətə qarşı çıxırlar. Demokratiyanın yalnız dövlətin zəiflədiyi təqdirdə mümkün olacağı kimi yanlış fikrə düşüblər. Bu yanlış fikrin təsiri ilə hər cür dövlət təşkilatını hədəf seçir, dövlətin cəmiyyətin faydası üçün tətbiq etdiyi siyasəti gözü bağlı şəkildə tənqid edirlər.

Mövzunun qəribə bir cəhəti də kökündə sol ideologiyanın yer aldığı bütün bu dövlət əleyhinə olan ifadələrin bir qrup mühafizəkar dairələrə zaman keçdikcə təsir etməsidir. Bu dairələr dövlətin təhlükəsizliyi, rifahı və birliyi üçün tətbiq edilən bəzi sosial siyasətin dinə qarşı olduğunu zənn edir və sonra da bu zənn səbəbindən dövlətə qarşı cəbhə alırlar. Halbuki müstəqil Azərbaycan dövləti heç vaxt dinə qarşı siyasət aparmamış, əksinə, ulu öndər Heydər Əliyevin: **"Heç vaxt imanımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"** -sözünə qüvvət olaraq həmişə mənəvi dəyərlərin qorunmasının Azərbaycan dövlətinin mövcudluğunu əsas şərti olduğu düşüncəsi ilə hərəkət etmişdir. Belə ki, cəmiyyətimizin mənəvi dəyərlərə ən çox bağlı olan qurumları tarixdə həmişə dövlətə ən çox sədaqət göstərən qurumlar olmuşdur.

Nəticəetibarilə, bu kitabçada dövlətə qarşı çıxan qurumların yanlış yolda olduqları və millətimizin gələcəyi üçün güclü və təsirli dövlət quruluşunun zəruriliyindən bəhs edəcəyik. Vətənini və millətini sevən hər kəs bu həqiqət üzərində düşünməli və siyasi düşüncələrini buna görə tənzimləməlidir.

"Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir".

**HEYDƏR ƏLİYEV**



# DÖVLƏT NƏDİR?

**"İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır".**

**HEYDƏR ƏLİYEV**

Dövlət ortaq həyat və mədəniyyəti paylaşan bir cəmiyyətdə bu cəmiyyəti nizamlama, bu cəmiyyətə təhlükəsizlik, sülh və rifah təmin etmə məqsədini daşıyan və bu məqsədə yönələn qanunlar qəbul etmə, bu qanunları tətbiq etmə, mühakimə etmə, cəzalandırma kimi güclərə sahib olan quruluşdur.

Dövlət, tarixin məlum olan ən qədim cəmiyyətlərindən indiyə kimi həmişə var olmuşdur. Marksistlər ortaya atdıqları xəyali "mədəni təkamül" ssenarisi daxilində dövlətin sonradan ortaya çıxan bir mexanizm olduğunu iddia edirlər. İlk cəmiyyətlərdə dövlət və ya dövlətə bənzər bir qurumun olmadığını, "kommunal" həyat tərzinin mövcudluğunu irəli sürürlər. Halbuki heç bir tarixi və ya

arxeoloji tapıntı bu iddianı təsdiq etmir. Əksinə, haqqında məlumatımız olan ən qədim mədəniyyətlərin hamısında güclü dövlət mexanizmlərinin mövcud olduğu məlumdur. Buna görə də dövlət quruluşunun insanlıq tarixi ilə bir yaşda olduğunu söyləmək mümkündür.

Bu, əslində insanın yaradılışının təbii nəticəsidir. İnsan yaradılışının tələbi olaraq "doğru" və "yanlış" anlayışlarına malik olmaqla doğrunu öyrənmək və bu doğruya uyğun şəkildə yaşamaq istəyir. Yanlışı tətbiq edənlərin isə dayandırılmasını, onlara mane olmağı arzu edir. Buna görə də insanlara doğrunu göstərən bəzi qanunlar qəbul edən və bu qanunlara tabe olmağı təmin edən bir nüfuzun varlığı zəruridir.

Belə ki, cəmiyyətlərin quruluşu düşünüldüyündə dövlətin nə qədər əhəmiyyətli olduğu asanlıqla görünür. Bir cəmiyyətdə sülh və əsayişi təmin edən, zərərli davranışları qanunla qadağan edən, bu qanunlara da tabe olmağı məcbur edən yeganə güc dövlətdir. Buna paralel olaraq, dövrümüzdəki cəmiyyətlərin sağlamlıq, təhsil, milli təhlükəsizlik, infrastruktur kimi xidmətlərin də yalnız dövlət tərəfindən qarşılana biləcəyi aydındır.

Bunları ətraflı şəkildə araşdıracağıq. Bunun üçün əvvəlcə, dövlətin varlığına qarşı çıxan ən əhəmiyyətli siyasi ideologiya olan anarxizmin yanlışlıqlarına nəzər yetirək.

## Anarxizmin yanlışlığı

Anarxizm sol ideologiyaların ən marjinalı kimi qəbul edilir. Anarxizm yunan sözü olub "özbaşınalıq" deməkdir. Bu ideologiyanın tərəfdarları dövlətin cəmiyyətə zərər verən bir qurum olduğunu iddia etmiş və insanların azadlıq və sülhə qovuşması üçün dövlətin ortadan qaldırılmasının lazım olduğunu müdafiə etmişlər. Dövlətlə yanaşı, dinə də qarşı çıxmış və dinin məhv edilməsinə çalışmışlar. Fransa

inqilabından sonra ortaya çıxan bu ideologiya xüsusilə 19-cu əsrdə məşhurlaşmış, Rusiyada Bolşevik inqilabının (1917) hazırlanmasında da rol oynamışdır.

Əvvəlcə, anarxizmin tamamilə xəyali və həqiqətlərdən uzaq fikir olduğuna diqqət yetirmək lazımdır. Çünki dünyanın heç bir ölkəsində heç bir zaman bu ideologiya tətbiq olunmayıb. Heç bir zaman dövlətin ləğv edilib anarxist cəmiyyətin qurulması hadisəsi baş verməyib. Yalnız bəzi böhran zamanlarında dövlətlərin nüfuzu zəifləmiş, bunun nəticəsində isə cəmiyyətə sülh və rifah deyil, əksinə yalnız çəkişmə, qarşıdurma və talan gəlmişdir.

Başqa cür mümkün də deyil. Çünki dövlətin olmadığı şəraitdə cəmiyyətin öz-özünü təşkil edərək asayiş və sabitlik meydana gətirməsi qeyri-mümkündür. Dövlətin olmadığı bir mühitdə qanunlar da olmaz. Bu halda "cinayət" anlayışı ortadan qalxar və hər kəs istədiyi hərəkəti rahat şəkildə edə bilər. İstəyən hər kəs başqasının malına və ya canına qəsd etdiyində bu cinayəti "cinayət" olaraq müəyyən edən və mane olan bir nüfuzun olmadığı üçün qarşısında heç bir maneə görməz. Oğrular istədikləri malı oğurlayar, qatillər istədiklərini öldürər, onları dayandıran polis və ya mühakimə edən məhkəmə olmaz.

Belə bir cəmiyyət isə meşə qanunlarının hakim olduğu "sürü"yə çevrilər. İnsanların dincliyinin, şəxsiyyət və mülkiyyət toxunulmazlığının olmadığı bu sürü əslində "insan cəmiyyəti"ndən çox heyvan dəstələri kimi yaşayar. Maraqlısı budur ki, bu nəticə anarxistlərin fəlsəfəsinə tam uyğundur. Çünki anarxistlər də eynilə marksistlər kimi Darvinin ortaya atdığı "insanın təkamülü" nağılına inanır və dolayısilə, insanı "inkişaf etmiş heyvan növü" kimi qəbul edirlər.

Ancaq tarix anarxizmin tamamilə yanlış bir fəlsəfə olduğunu saysız misallarla sübut edir. Anarxistlər dövlətin aradan götürülməsinin sülh və rifaha gətirəcəyinə inanırlar.

Halbuki siyasi tarixə nəzər yetirdikdə dövlət hakimiyyətinin ortadan qalxdığı hər dövrdə qanlı xaos mühitinin olduğu görünür. Orta əsrlər boyu siyasi nüfuzun ortadan qalxdığı dövrlər həmişə qarət, talan və qırğın dövrləri olmuşdur. Anarxizmin çıxış nöqtəsi sayılan Fransa inqilabı tarixin ən qanlı siyasi hərəkatlarından biridir. Fransa inqilabında, xüsusilə də inqilabın "Terror dövrü" olaraq tanınan mərhələsində on minlərlə insan edam edilmiş, inqilabın Robespyer kimi öndə gələnləri də daxil olmaqla, bir çox insan gilyotinə göndərilmişdir. İnqilabdan sonra Fransa on beş ildən çox müddətdə hüzura qovuşa bilməmişdir. Nizam və təhlükəsizliyin yenidən təmin edilməsi isə inqilab dövrünün sona çatması və Napoleonun mütləq iqtidarının qurulması ilə, yəni dövlətin yenidən təsis edilməsi ilə mümkün olmuşdur. Bu hal tarixin hər dövründə eynidir. Dövlət əleyhində edilən hər cür "inqilab" inqilabçıların buna başladıqları vaxt ortaya atdıqları bəzəkli şüarların əksinə, qan, kədər və gözyaşı gətirir.

Beləliklə, anarxizmin böyük yanlışlıq olduğunu ifadə etdikdən sonra dövlətin zəruriliyini fərqli istiqamətlərdən araşdıraq.

## Dövlət və milli müdafiə

Dünyada yaşayan insanlar müəyyən birliklərin üzvüdürlər. Bunların ən əsası ailədir. Daha sonra qismən zəif olan qonşuluq, nəsil, həmyerlilik və etnik mənşə kimi əlaqələr var. Ancaq bütün bu mənsubiyyətlərin, xüsusilə siyasi yöndən ən əhəmiyyətlisi milli mənsubiyyətdir. Başqa ifadə ilə desək, insanın hansı millətdən olduğu sualıdır. Çünki dünyadakı siyasi nüfuzlar (dövlətlər) millətinə görə bir-birindən ayrılırlar. Almaniya alman millətinin ölkəsi, Fransa fransızların, Azərbaycan isə azərbaycanlıların yurdudur.

Dünyadakı siyasi rəqabət və qarşıdurmalar da milli əsasaslar üzərində inkişaf edir. Eyni vəziyyət siyasətin davamı sayılan müharibə üçün də etibarlıdır. Almaniya alman millətini dünyaya hakim etmək xülyası ilə İkinci dünya müharibəsini başlatmışdır.

Dünyanın bu şəkildə, yəni ölkələr arası siyasi balanslara əsasən qurulması hər insanı yaşadığı ölkənin mənfəətlərinə görə düşünməyə məcbur edir. Heç kim: "Əsas mən, şirkətim və ailəmdir. Yerdə qalan əhəmiyyətli deyil", -deyə bilməz. Çünki ailəsinin və özünün gələcəyi yaşadığı ölkənin gələcəyinə bağlıdır. Əgər düşmən ölkə yaşadığı ölkəni işğal etsə, özü, şirkəti və ailəsi də bundan böyük zərər görər. O, yaşadığı ölkənin vətəndaşıdır və ölkəsinin gücünə, müstəqilliyinə mütləq tərəfdar olmaq məcburiyyətindədir.

Dövlətin nə qədər zəruri bir qurum olduğu da burda açıq şəkildə bəlli olur. Çünki bir ölkənin mövcudluğunu qoruyan yeganə quruluş dövlətdir. Ölkənin milli təhlükəsizliyindən məsul olan yeganə nüfuz odur. Milli müdafiə üçün ordu yaradan, bu orduya dəstək olan və gücləndirən quruluş dövlətdir. Əlbəttə, heç bir xüsusi qurum və ya qeyri-hökumət təşkilatı qətiyyən belə bir rol oynaya bilməz.

Buna görə, ölkədə yaşayan hər bir vətəndaş dövlətinin güclənməsinə və yüksəlməsinə tərəfdar olmaq məcburiyyətindədir. Dövləti zəiflədən hərəkətlərə yol verən hər kəs özünün, ailəsinin və sevdiyi hər kəsin əleyhində hərəkət etmiş olar. Əgər başqa dövlətə xidmət etməyi hədəf tutarsa, onda adı "vətən xaini" olar.



Bolşevik inqilabında Rusiya







Fransada inqilabdan sonra on beş ildən artıq davam edən sabitliksizlik dövrü yaşanmışdır.

## Dövlət və ictimai təhlükəsizlik

Güclü bir dövlətin varlığı yalnız milli müdafiə üçün deyil, eyni zamanda ölkənin daxilində təhlükəsizlik və dincliyin təşkili üçün də zəruridir.

Anarxizmin yanlışlığından danışarkən dövlətin zəiflədiyi bir mühitdə hər cür cinayətin asanlıqla törədildiyini, "cinayət"i müəyyən edən və ona mane olan nüfuzun olmadığını söyləmişdik. Bu mövzunu bir az daha açıqlaya bilərik.

Dövlətin nüfuzunu itirdiyi və bunun nəticəsində təhlükəsizliyin olmadığı bir mühit təsəvvür edək. Belə bir mühit cinayətkarların hər cür cinayəti asanlıqla törətdiyi, vicdanlı vətəndaşların isə hər cür təcavüzün hədəfinə çevrildiyi qorxunc bir cəmiyyət quruluşu meydana gətirər. Belə olduğu təqdirdə böyük ehtimalla təhlükəsizliyi təmin etmək üçün dövlətin yerinə "xüsusi sektor"a müraciət edilər, yəni mafiyaya bənzər şəbəkələr meydana gələr və vətəndaşlar onlara pul ödəməklə təhlükəsizlik əldə etməyə çalışarlar. Ancaq bu mafiyaya bənzər şəbəkələrin özbaşına və cinayətə meyilli insanlardan meydana gəlməsi mütləqdir. Bir müddət sonra bu təşkilatlanmalar vətəndaşlara qarşı təcavüzə başlayar və bu şəbəkələrin arasında qarşıdurma və daxili hesablaşmalar başlayar.

Polisin olmaması hüquq mühafizə orqanlarının süqutu deməkdir. Dövlətin nüfuzu olmasa, məhkəmələr olmaz, prokuror və hakimlər fəaliyyət göstərməz. Belə bir vəziyyətdə cəmiyyətdəki heç bir hüquqi anlaşılmazlıq həll edilməz. Ədalətlə hökm edən və bu hökmü icra edən bir mexanizm olmadığı üçün hər cür haqsızlıq, haqqa təcavüz və sui-istifadə asanlıqla tətbiq olunar. Əgər yenə "xüsusi sektor"lar vasitəsi ilə məhkəmələr qurulsa belə, onların

mafiyaya bənzər mexanizmlər olacağı, özlərinə daha çox pul verən tərəfi haqlı çıxarmağa çalışacağı məlumdur. Çünki xüsusi sektorların əsas məqsədi qazanc əldə etməkdir. Buna görə də özlərinə daha çox qazanc təmin edən vasitələri tətbiq etməyə çalışarlar.

Nəticədə **dövlətin nüfuzunun zəifləməsinin ictimai təhlükəsizliyi, nizamı, sülh və əmin-amanlığı tamamilə yox edəcəyi aydındır.** Belə bir vəziyyətdə ölkədə xaos mühiti olar.

## Dövlətin ictimai həyatdakı müstəsna rolu

Güclü dövlət yalnız təhlükəsizliyin deyil, cəmiyyətin ümumi rifahının təmin edilməsi üçün də zəruridir. Buna nümunə olaraq iki sahəni nəzərdən keçirə bilərik: **sağlamlıq və təhsil.**

Xəstələrin müalicəsini öz üzərinə götürən qurumlar xəstəxanalardır. Bir cəmiyyətin sağlamlıq probleminin həll olunması üçün mütləq dövlət xəstəxanaları mövcud olmalıdır. Əlbəttə, dövrümüzdə xüsusi sektorlar tərəfindən açılan çoxlu sayda xəstəxanalar da var. Ancaq bir məsələyə diqqət yetirmək lazımdır: xüsusi sektorlar həmişə qazanc əldə etmək məqsədi daşıyırlar. Dolayısilə, xüsusi sektorların bütün cəmiyyətin sağlamlıq problemini həll etməsi qeyri-mümkündür. Az təminatlı ailələr heç vaxt xüsusi xəstəxanalardan faydalana bilməzlər və mütləq dövlətin qurduğu və özlərinə kömək edəcək xəstəxanalara ehtiyac duyarlar. Bundan başqa, peyvənd kampaniyaları və ümumi sağlamlıq işləri kimi ictimai xidmətləri reallaşdıran yeganə nüfuz da dövlətdir. Qazanc məqsədini daşıyan heç bir xüsusi təşkilat ibtidai məktəb uşaqlarını yoluxucu xəstəliklərdən qorumaq üçün ölkə miqyasında peyvənd kampaniyası təşkil etməz və ya ölkənin ucqar yerlərinə sağlamlıq xidməti aparmaz.

Cəmiyyətin rifahı ilə əlaqədar ikinci əhəmiyyətli mövzu isə təhsildir. Təhsili də eynilə sağlamlıq kimi qismən xüsusi sektorlar öz üzərinə götürə bilər, amma bu vəziyyətdə yenə xüsusi sektorun qazanc tələbini qarşılaya bilməyən yoxsul təbəqələr təhsil imkanından məhrum olarlar. Təhsilin bütün ölkəyə və böyük şəhərlərdən uzaq kəndlərə qədər yayılması da yenə ancaq dövlət sayəsində mümkündür. Əgər dövlətin təhsil sistemi olmasa, xüsusi sektor üçün qazanc gətirməyən bütün məskunlaşma vahidləri təhsil almaq imkanını itirər.

Dövlətin mövcudluğu təhsilin bərabər və standart olması üçün də zəruridir. Təhsil dövlətin təyin etdiyi standart tədris planına uyğun formalaşmadığı və tamamilə xüsusi qurumların nəzarətində olduğu təqdirdə cəmiyyət qısa müddətdə düşərgələrə ayrıla bilər. Kommunistlər kommunist ideologiyasını təlqin edən məktəblər aça bilər. İrqçilər uşaqlarını irqçi olaraq yetişdirən məktəblər qura bilər. Bu şəkildə qısa müddət ərzində cəmiyyət bir-birinə tamamilə yad və düşmən fərdlərdən formalaşa bilər. Cəmiyyətin birliyinin qorunması və bir yerdə yaşamağı mümkün edən ortaq mədəniyyətin inkişafı üçün mütləq dövlət tərəfindən təyin olunan standart təhsil sistemi tətbiq olunmalıdır. Fərqli mədəni qruplara və ya peşə təhsili tələblərinə xüsusi məktəb statusu verilə bilər, amma bu xüsusi status yenə də tədris planının əsas qaydalarına bağlı olmalıdır.

Qısası, bir cəmiyyətin təhsil və sağlamlıq kimi ən əsas ehtiyacları ancaq güclü dövlətin müdaxilə və nəzarəti ilə həyata keçirilə bilər.

## Dövlətin iqtisadi həyatdakı müstəsna rolu

19-cu əsr çoxlu sayda mütəfəkkirin nəzəriyyələr yazdığı bir dövr idi. Liberalizm və marksizm kimi iki fərqli sosial nəzəriyyə bu dövrdə ortaya çıxdı. Hər iki nəzəriyyənin də ortaq xüsusiyyəti təcrübələrə deyil, mücərrəd fikirlərə əsaslanması idi. 20-ci əsrdə isə bu fikirlər tətbiq edilməyə başlandı və ortaya bəzi konkret təcrübələr çıxdı.

Marksizmin bu təcrübələrin nəticəsində süqut etdiyi məlumdur. Dövlətin əvvəl zorakılıq yolu ilə ələ keçirilməsini, sonra bütün iqtisadiyyatın dövlət nəzarətinə alınmasını və uzaq gələcəkdə də dövlətin tamamilə ləğv edilməsini müdafiə edən bu nəzəriyyənin həqiqətlərlə uyğunlaşmayan və çox səmərəsiz iqtisadi model ortaya qoyduğu aşkardır. Sovet İttifaqının mərkəzi planlamaya əsaslanan iqtisadi modelinin süqut etməsi dövlətin səhv iqtisadi siyasəti olduğunu və iqtisadiyyatın ancaq xüsusi sektorun rolu ilə məhsuldar hala gələcəyini ortaya qoymuşdur.

Ancaq o qədər diqqət çəkməyən başqa bir fakt isə ondan ibarətdir ki, 20-ci əsrdəki təcrübələrin 19-cu əsr liberalizmini də bəzi istiqamətlərdən haqsız çıxarması idi. 19-cu əsrdə yaşamış liberal iqtisadiyyat müdafiəçiləri 18-ci əsrdəki ingilis iqtisadçı Adam Smitin yolunu izləyərək "ən yaxşı dövlət, ən az müdaxilə edən dövlətdir" fikrini müdafiə edirdilər. Dövlətin iqtisadi həyata müdaxilə etməməsinin və bütün iqtisadiyyatın xüsusi sektorun nəzarətində olmasının lazım olduğunu müdafiə etmişdilər.

Dövlətin tamamilə kənarlaşdırıldığı bu iqtisadi model 19-cu əsrin sonlarından 20-ci əsrin birinci rübünə qədər başda ABŞ olmaqla, bir çox qərb ölkəsində qəbul edildi. Ancaq 1929-cu ildə başlayan və "Böyük böhran" kimi tanınan nəhəng iqtisadi böhran bu modelin səhv olduğunu ortaya

qoydu. Böyük böhran Nyu-York birjasında baş qaldıran və sonra da bütün dünyaya yayılan həyəcanla doğulmuşdu. Dünya iqtisadiyyatını illərlə zəiflədən bu böhran dünya ticarət dövriyyəsinin  azalmasına, cəmiyyətlərin gəlir və rifah səviyyələrinin aşağı düşməsinə, milyonlarla insanın işsiz qalmasına səbəb oldu.

Böyük böhranın ortaya qoyduğu ən əhəmiyyətli nəticələrdən biri dövlətin iqtisadiyyatdan tamamilə uzaqlaşdırılmasının çox zərərli olduğu idi. Belə ki, Böyük böhrandan sonra inkişaf edən "Keynes modeli" iqtisadi sistemi dövlətin müəyyən ölçüdə iqtisadiyyata müdaxilə etməsinin, bəzən də sərmayələrlə iqtisadiyyatı istiqamətləndirməsinin lazım olduğunu qəbul etdi. Bir çox dövlət də Keynes modelini tətbiq etməklə Böyük böhranın vurduğu zərərləri ortadan qaldıra bildi.

**Hal-hazırkı dövrdə etibarlı olan iqtisadi model xüsusi sektorun lokomotiv funksiyasını yerinə yetirdiyi, amma dövlətin idarəçiliyi və istiqamətləndirməsi ilə işləyən iqtisadi modeldir.** Dövlətin başda infrastruktur sərmayələri olmaqla, iqtisadiyyatın bəzi sahələrinə əl atması zəruridir. Bundan əlavə, xüsusi sektor üçün gəlir gətirməyən, amma cəmiyyətin ümumi rifahı baxımından lazım olan bəzi xidmətlərin yerinə yetirilməsi üçün də yenə dövlətin müdaxiləsi zəruridir (məsələn, poçt xidməti dünyanın heç bir ölkəsində qazanc gətirmir, amma cəmiyyətin faydası üçün dövlət tərəfindən icra edilir). Eyni şəkildə, bir ölkənin strateji təhlükəsizliyini maraqlandıran iqtisadi məsələlər də dövlət tərəfindən təşkil edilməlidir.

Xülasə olaraq, bir ölkənin rifahı üçün iqtisadiyyatın dövlət tərəfindən idarə edilməsi, qanunlarla təşkil edilməsi, bəzən də birbaşa dövlətin müdaxiləsi ilə istiqamətləndirilməsi zəruridir. Dövlət bunları edə bilmək üçün, əlbəttə, güclü olmalıdır.

1929-cu ildə yaşanan və «Böyük böhran» adı verilən iqtisadi böhran bütün dünyaya dövlətin xaric edildiyi iqtisadi modelin səhv olduğunu gösərmişdir.


STAGE | BROADWAY | SCREEN

# VARIETY

PRICE 25¢

VOL. XCVII No. 2 — NEW YORK, WEDNESDAY, OCTOBER 30, 1929 — 88 PAGES

# WALL ST. LAYS AN EGG

## Going Dumb Is Deadly to Hostess In Her Serious Dance Hall Profesh

## DROP IN STOCKS ROPES SHOWMEN

Many Weep and Call Off Christmas Orders — Legit Shows Hit

MERGERS HALTED

## Kidding Kissers in Talkers Burns Up Fans of Screen's Best Lovers

Bank on Winchell

Talker Crashes Olympus

HOMELY WOMEN SCARCE; CAN'T EARN OVER $25






1929-cu il böhranı dünya ticarətində geriləməyə, cəmiyyətlərin gəlir və rifah səviyyələrinin aşağı düşməsinə səbəb olmuş və milyonlarla insan işsiz qalmışdır. Ən altdakı şəkildə o dövrdə iş tapmaq üçün növbədə gözləyən insanlar görünür.

## Nəticə

Bura kimi araşdırdığımız mövzular bir cəmiyyətin etibarlı, dinc və rifah yaşaması üçün güclü dövlətin mütləq qorumasında və idarəçiliyində yaşamalı olduğunu göstərir. Dövlətin ortadan qaldırılmasını müdafiə edən anarxizm böyük yanlışlıqdır. "Ən yaxşı dövlət ən az idarə edən dövlətdir", -deyən 19-cu əsr liberalizmi də yanılmışdır və dövlətin müdaxiləsinin lazım olduğunu qavraya bilməmişdir.

Dövlətin hər şeydən uzaqlaşdırılması bir tərəfə qalsın, dövlət nüfuzundakı ən kiçik zəiflik belə bir cəmiyyəti böyük problemlərlə qarşı-qarşıya qoyur. Dövlət nüfuzundakı ən kiçik bir boşluq bu boşluğun bəzi qeyri-qanuni qurumlar tərəfindən doldurulması ilə nəticələnər ki, bundan da hamı zərər çəkər. Zəif dövlət cəmiyyətdəki bəzi mənfəət güdən çevrələrin təsiri altında qalar və yenə bütün cəmiyyət bundan zərər görər.

Dolayısilə, cəmiyyətin hər bir üzvü güclü dövlət mexanizminə tərəfdar olmalıdır. Dövlətin güclənməsi üçün səy göstərməli və dövlətin zəifləməsinə yönələn hərəkətlərə qarşı çıxmalıdır. Qısacası, dövlətinə sahib çıxmalıdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ XÜSUSİYYƏTLƏRİ

Əvvəlki bölmələrdə millətin niyə güclü dövlətə ehtiyacı olduğunun cavabını verməyə çalışdıq. Əlbəttə, dövlət sisteminin güclü olmasının lazım olduğunu ifadə etmək kafi deyil, bunun qədər digər əhəmiyyətli mövzu isə dövlətin xüsusiyyətləridir.

Siyasi gücün millətə aid olduğu sistemlər demokratik sistemlərdir.

Demokratiya “xalqın idarəsi” mənasını verir və siyasi iradənin xalqa aid olduğu siyasi sistemi ifadə edir. Demokratiyalarda ölkəni idarə etmə və qanun qəbul etmə səlahiyyəti bütün xalqa məxsusdur. Xalq bu səlahiyyətindən sərbəst seçki yolu ilə seçdiyi nümayəndələr vasitəsilə istifadə edir. Ölkəni idarə edənlər və qanunları qəbul edənlər xalqın razılığını qazanmaq məcburiyyətindədir. Xalq təsdiq etsə, hakimiyyətə gələr. Vəzifədən kənarlaşdırılmaları da yenə xalqın iradəsi ilə, yəni bu iradənin təmsil edildiyi sərbəst seçkilərlə baş verər.

Azərbaycan Respublikası bu xüsusiyyətlərə sahib demokratik dövlətdir.

Konstitusiyamızda Azərbaycan Respublikasının əsas xüsusiyyətləri yer almışdır. Bu dəyişdirilməz xüsusiyyətlər Azərbaycan Respublikasının dünyəvi və hüquqi dövlət olduğu mənasını verir. Bunlar çox əhəmiyyətli xüsusiyyətlərdir və millətin mənfəətlərini ən yaxşı şəkildə qoruyacaq quruluşa sahib olduğunun göstəricisidir. İndi bunları sıra ilə nəzərdən keçirək.

## Dövlətimizin dəyişməz unitar quruluşu

Azərbaycan Respublikası unitar dövlətdir. Yəni vahid konstitusiyası, dövlət hakimiyyətinin vahid ali nümayəndəli

orqanları, vahid hökuməti, vahid vətəndaşlığı, vahid maliyyə - kredit və pul sistemi və s. var. Tərkibində fərqli qanunların qüvvədə olduğu fərqli idarəetmə bölgələri yoxdur. "Federativ" deyil. Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyəti bütün Azərbaycan ərazisini əhatə edir və hər bir Azərbaycan vətəndaşı bu ərazidə bərabər hüquqa malikdir. Dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq, azərbaycanlı olan hər kəs Azərbaycan Respublikasının vətəndaşı sayılır. Qeyd edilən unitar dövlət quruluşu dövlətimizin ərazi bütövlüyünün və daxili sabitliyin ən böyük təminatıdır.

Azərbaycan dövlətinin sərhədləri daxilində ana dili azərbaycanca olmayan, fərqli etnik mənşədən gələn qruplar ola bilər, ancaq onlar da Azərbaycan vətəndaşıdır. Azərbaycanın hər yerində və hər kəs üçün qüvvədə olan qanunlar onlara da şamil edilir. Azərbaycanın hər yerində və hər kəs üçün etibarlı olan konstitusion hüquq və azadlıqlara onlar da aiddir.

## Dünyəvilik prinsipi

**"Bizim dövlətimiz dünyəvi dövlətdir, ancaq biz dindən ayrı deyilik".**

**HEYDƏR ƏLİYEV**

Konstitusiyada ifadə edildiyi kimi, Azərbaycan Respublikası dünyəvi dövlətdir. Dövlətin bu xarakteristikası özündə onu ehtiva edir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, başqa sözlə, bunlar qarşılıqlı fəaliyyət göstərir, bir-birlərinin işlərinə qarışmırlar. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan dünyəvi dövlətdir. Azərbaycan dövlətinin dünyəvi dövlət xarakteristikası özünü aşağıdakı amillərdə

göstərir. Birincisi, rəsmi, qanuniləşdirilmiş dinin mövcud olmaması: heç bir din məcburi müəyyən edilə bilməz. İkincisi, dinin dövlətdən ayrılması. Üçüncüsü, bütün dini etiqadların qanun qarşısında bərabərliyi. Bu müddəalar Azərbaycan Respublikasının 18-ci maddəsində təsbit olunmuşdur.

Dövlət və dini icmaların qarşılıqlı münasibətlərinə toxunarkən konstitusiya bu müddəaları konkretləşdirməklə yanaşı, aşağıdakı halları müəyyən edir:

Hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, valideynlər və onları əvəz edən şəxslər qarşılıqlı razılıq əsasında, uşaqlarını özlərinin dini əqidəsinə və dinə münasibətlərinə müvafiq olaraq tərbiyə edə bilərlər.

Dünyəvilik tarixdə və dövrümüzdə səhv başa düşülmüş və səhv tətbiq olunmuş prinsipdir. Buna görə də bu prinsipi və nəticələrini ətraflı araşdırmaq faydalı olar.

Qeyd etmək lazımdır ki, **dünyəvilik prinsipinin əsas məqsədi əslində vicdan azadlığını təmin etməkdir.** Dünyəvilik prinsipi dövlətimizin vətəndaşlarını bir dini mənimsəmə, bu dinin tələblərini yerinə yetirmə və ya yetirməmə məsələsində öz vicdanları ilə baş-başa buraxır və onlara azad seçim imkanı verir. Dövlət müəyyən bir dinə və ya məzhəbə üstünlük vermədiyi üçün hər kəs sahib olduğu inanca görə yaşamaq imkanı əldə edir.

Diqqət yetirilsə, əslində dövlətimizin sahib olduğu bu dünyəvilik modeli İslam dininə çox uyğundur. Çünki İslam dini azad iradəni əsas şərt olaraq müəyyən edir. Bir insanın İslamı din olaraq mənimsəməsi tamamilə öz azad iradəsi ilə olmalıdır. İslamı qəbul etdikdən sonra da Quranda əmr edilən ibadətləri yerinə yetirməsi və ya qadağalardan (oğurluq, cinayət kimi ictimai cinayət törətmirsə) çəkinməsi tamamilə öz vicdanı ilə olmalıdır. Əlbəttə, müsəlmanlar bir-birlərini Quranda izah edilən əxlaqi xüsusiyyətlərin tətbiq olunması üçün xəbərdar və

təşviq edə bilərlər. Amma əsla bu mövzuda məcbur etmə ola bilməz. Yaxud da dünyəvi imtiyaz verilməklə şəxs dinin tələblərinə əməl etməyə yönləndirilə bilməz.

Bunun əksi olan bir dövlət modelindən bəhs edək. Məsələn, insanların məcburi olaraq müsəlman və ya xristian edildiyi bir ölkə təsəvvür edək. Bundan başqa, bu dinlərə inananların dinlərin qaydalarına görə, yaşamaları üçün məcbur edildiklərini fərz edək. Məsələn, qeyd edilən dövlət modeli cəmiyyətdəki insanları namaz qılmaq və ya kilsəyə getmək üçün xüsusi polis gücü ilə məcbur etsin. Yaxud da bir az daha "mülayim" üsuldan istifadə edib namaz qılanlara və ya kilsəyə gedənlərə xüsusi dövlət hədiyyəsi versin. Belə bir dövlət dünyəviliyə tamamilə zidd dövlət olar. Bundan başqa, bir o qədər də dinə zidd olar.

Bunun səbəbi zorla və ya mənfəət qarşılığında qəbul edilən dini inancın, yaxud ibadətin İslama görə heç bir dəyərinin olmamasıdır. Çünki **inanc və ibadət yalnız Allah üçün olduğunda dəyərlidir.** Əgər dövlət insanları inanca və ya ibadətə məcbur etsə, bu vəziyyətdə insanlar dövlətdən qorxduqları üçün dindar olarlar. Din baxımından məqbul olan isə vicdanların tamamilə sərbəst olduğu bir mühitdə dinin yaşanmasıdır.

Buna görədir ki, dövlətimizin sahib olduğu dünyəvilik prinsipi həm vicdan azadlığı kimi əsas insani dəyərə xidmət etdiyi, həm də bu dəyərə böyük əhəmiyyət verən İslam dini ilə uyğunlaşdığı üçün hər bir Azərbaycan vətəndaşının mənimsəməsi və müdafiə etməsi lazım olduğu bir prinsipdir.

## Hüquqi dövlət

**"Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır!"**

**HEYDƏR ƏLİYEV**

Azərbaycan Respublikası hüquqi dövlətdir. Yəni məqsədi qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaqdır. Başqa sözlə, dövlətimiz "qanunun aliliyi" prinsipini mənimsəmişdir. Bu prinsip ədalət anlayışının əsasını meydana gətirir. O dövlət hüquqi dövlət kimi xarakterizə olunur ki, hüquqla özünün fəaliyyətini məhdudlaşdırır, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasını özünün başlıca məqsədi hesab edir.

Qanunun aliliyi dövlətin bütün mexanizmlərinin əvvəldən təsbit edilmiş bəzi qanun və qaydalar daxilində işləyəcəyi mənasını verir. Hər dövlət quruluşu konstitusiyanın və digər qanunların təsbit etdiyi vəzifə və səlahiyyətlərə malikdir. Heç kimin bu vəzifə və səlahiyyətləri aşmaq və dəyişdirmək gücü yoxdur. Hüquq hər şeydən üstündür və dolayısilə dövlət "özbaşına" deyil.

Hüququn aliliyi prinsipi hüquqi dövlətin ən mühüm prinsipidir. Bu prinsip öz təzahürünü hər şeydən əvvəl qanunun aliliyində tapır. Ölkəmizdə konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan qanundur. Konstitusiya təkcə qanunvericilik sisteminin yox, eyni zamanda hüquq sisteminin əsasını təşkil edir. Digər tərəfdən konstitusiya dövlətin bütün ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsi, konstitusiyanın əsas qanunu olmaqla öz əlamətlərini təsbit etmişdir.

I Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan

Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II Azərbaycan Respublikası Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Hüquqi dövlətdə yaşamaq bütün vətəndaşlar üçün böyük qazancdır. Çünki hüquqi dövlətdə hər kəsin mülkiyyəti, konstitusion hüquq və azadlıqları qorunur. Heç kəsin mülkiyyəti zorla müsadirə edilə bilməz, heç kim işləməyə məcbur edilə bilməz, hüquqlarından məhrum edilə bilməz. Əgər hər hansı bir şəxs bu hüquqlarının pozulduğunu, ədalətsizliyə məruz qaldığını düşünürsə, bu halda məhkəmə qaydasında pozulmuş hüquqlarını bərpa edə bilər. Azərbaycanda mövcud bütün hüquq mühafizə orqanları başda dövlət ittihamçıları olmaqla hüquqi dövlətdə hüquqları qorumaq üçün çalışırlar. İstəyən hər kəs hüquqi dövlətin qaydalarına uyğun olaraq ərizə ilə prokurorluqlara müraciət edə bilər və dövlətdən ədalət tələb edə bilər.

Hüququ, yəni qanunları isə millətin seçdiyi nümayəndələrdən ibarət olan Azərbaycan Respublikası Milli Məclisi müəyyən edir. Əgər qanunlarda bir boşluq olsa, bu halda qanunlar dəyişdirilir, yeniləri qəbul edilir. Dolayısilə, bu qanunların hər hansı bir şəkildə millətin əleyhinə olması qeyri-mümkündür.

Göründüyü kimi, hüquqi dövlət sistemi bir ölkənin vətəndaşları üçün ən ədalətli, azad və rahat sistemdir. Dolayısilə, hər bir vətəndaş dövlətimizin bu əsas xüsusiyyətinə sahib çıxmalıdır. Əgər hüquqi dövlətin işlərində axsaqlıq meydana gələrsə, hər kəs əlbir olub dövlətə kömək etməli və hüququn üstünlüyü prinsipini qorumağa cəhd göstərməlidir.

# PROBLEMLƏRİN DÖVLƏTƏ BAĞLILIQLA HƏLLİ

Buraya qədər nəzərdən keçirdiklərimiz bizə iki əhəmiyyətli nəticəni göstərir:

1. Bir millətin varlığı və davamlılığı üçün güclü dövlətə sahib olmaq lazımdır.

2. Azərbaycan Respublikası vətəndaşlarının mənafeyini güdən, millətin rifahının, təhlükəsizliyinin və gələcəyinin yeganə təminatı olan dövlətdir.

Dolayısilə, yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan dövlətini qorumaq, dövlətə sahib çıxmaq hər bir Azərbaycan vətəndaşının ilkin vəzifəsidir. Heç bir vətəndaşımız dövlət qurumlarına zərər verən, bu qurumların fəaliyyətini ləngidən və ya dövlətin əsas dəyərlərinə ziyan vuran heç bir fəaliyyətə qətiyyən yol verməməlidir. Milli vəzifəmiz həmişə dövlətin yanında olmaqdır. Buna zidd fəaliyyət göstərən insan öz oturduğu evin bünövrəsini qazan şəxs kimi öz varlığına və gələcəyinə zərər vermiş olar.

## Fərqli siyasi fikirlərin dövlətə bağlılıqda birləşməsi

**"İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır".**

**HEYDƏR ƏLİYEV**

Demokratik cəmiyyətdə ölkə məsələlərinin həllində hər kəsin və hər qrupun fərqli fikirləri ola bilər. Məsələn, bəziləri azad bazar iqtisadiyyatını müdafiə

edə bilər, bəziləri qarışıq iqtisadiyyatın faydalı olacağını düşünər. Eyni qaydada xarici siyasətdən tutmuş ölkənin abadlaşdırılması məsələlərinə qədər hər mövzuda fərqli fikirlər ola bilər. Dünyagörüşü cəhətdən də cəmiyyətin bir hissəsi daha mühafizəkar, bir hissəsi daha liberal olar. Amma əhəmiyyətli olan bütün bu fərqli siyasi və mədəni cərəyanların dövlətə bağlılıq mövzusunda ortaq davranış göstərmələridir.

Çünki bütün bu qruplar Azərbaycan Respublikasının tərkib hissəsidir və ancaq Azərbaycan dövləti güclü olduğu təqdirdə müstəqil millət olaraq yaşamaq imkanına sahibdirlər. Öz aralarında siyasi mübarizə apara bilər, fərqli partiyalar qura bilərlər. Amma hamısı dövlətə sadiq, dövlətin və dövlət təşkilatlarının qorunması mövzusunda eyni həssaslıqda olmalıdır.

## Problemlərin dövlətlə uzlaşaraq həll edilməsi

**"Kim müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyya-tına, məsləyinə müxalifətdə durmasın".**

**HEYDƏR ƏLİYEV**

Hökümət tərəfindən cəmiyyətin ümumi faydası üçün yeridilən siyasət bəzən cəmiyyətdəki bəzi qrupları narahat edə bilər. Onlar dövlətin apardığı siyasətin onlara zərər verdiyini düşünə bilərlər. Lakin bu kimi vəziyyətlərdə həll yolu dövlətə qarşı çıxmaq, küçələrə axışıb dövlətə etiraz etməyə çalışmaq, hətta dövlətin təhlükəsizlik güclərinə qarşı çıxmaq deyildir. Həll yolu- problemlərin və tələblərin dövlətə bildirilməsi və dövlətlə birlikdə həll yollarının axtarılmasıdır.

Belə ki, dövlətin bu kimi tələb və problemləri həll

edən mexanizmləri var. Dövlətimiz cəmiyyətin tələblərini dinləməyən bir qurum deyil. Əksinə, dövlət ədalət sistemi, parlamenti ilə cəmiyyətin tələblərini qarşılamağa yönələn quruluşdur. İstəyən hər kəs ərizə ilə dövlət idarələrinə müraciət edə bilər və kömək istəyə bilər. Hətta hər kəs dövlətdən izn alıb yürüş keçirə, nümayiş təşkil edərək fikirlərini demokratik yolla ifadə edə bilər.

Azərbaycan Respublikası vətəndaşları bu xüsusları nəzərə almalı və hər cür problem və şikayətlərini dövlətə zidd davranmaqla deyil, dövlətin rəsmi instansiyalarına müraciət etməklə və uzlaşma yolu ilə həll etməyə çalışmalıdırlar. Buna uyğun olmayan hərəkət onu edən şəxsə heç bir fayda verməməklə yanaşı, cəmiyyətimizə də yalnız narahatlıq verər.

# DÖVLƏTƏ BAĞLILIQ VƏ ƏXLAQ

**"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir".**

**HEYDƏR ƏLİYEV**

Buraya qədər dövlətə bağlılığın əhəmiyyətini fərqli prizmalardan araşdırdıq. Vətəndaşlarımızın dövlətimizə daima hörmət etmələrinin lazım olduğunu, ancaq bu şəkildə sülh, hüzur və rifah təmin ediləbiləcəyini açıqladıq. Ancaq bütün bu məntiqi səbəblərdən başqa dövlətə bağlılığı təmin edən əsl amil cəmiyyətdə görünən əxlaq anlayışıdır.

Əgər bir cəmiyyətdə mənfəətpərəstlik geniş şəkildə yayılarsa, üsyan və qarşıdurma məqbul görülərsə, hörmət və fədakarlıq kimi anlayışlar tərk edilərsə, bu vəziyyətdə o cəmiyyətin fərdlərinin dövlətə bağlı olmaları da düşünülə bilməz. Çünki dövlətə bağlılığın təməlində müəyyən tərbiyə və əxlaq dayanır. Bu tərbiyə və əxlaq olmazsa və yuxarıda ifadə etdiyimiz pis əxlaq xüsusiyyətləri cəmiyyətdə yayılarsa, dövlətə bağlılıq anlayışı da özlüyündən ortadan qalxmağa başlayar.

Haqqında danışdığımız tərbiyə və əxlaqın təməlində isə dini inanclar durur. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin: "Biz azərbaycanlılar - bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur - heç vaxt imanımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq", -sözü bu həqiqəti açıq şəkildə qoyur.

## Dinin insanlara qazandırdığı "itaət" xüsusiyyəti

Məlum olduğu kimi, bir cəmiyyətdə əmin-amanlıq o cəmiyyətdəki insanların dövlətə və onun bütün idarələrinə göstərdikləri itaət, hörmət və etibarla təmin edilə bilər. Quranda isə "itaət" məqbul sayılan əxlaq xüsusiyyəti olaraq təşviq edilir. Allah müsəlmanlara bir çox ayəsi ilə itaəti əmr edir. Dolayısilə, Quran əxlaqına görə yaşayan insanların meydana gətirdiyi cəmiyyət eyni zamanda dövlətə itaət və hörmətin ən yüksək dərəcədə yaşandığı bir mühit olar.

Din eyni zamanda insanları hər cür anarxiya və terror hərəkatından da uzaq tutar. Çünki Allah Quranda insanları fitnə-fəsaddan uzaq durmağa çağırmışdır. Bu mövzu ilə əlaqədar bir çox ayə var:

**…Allahın verdiyi ruzidən yeyin-için, fəqət yer üzündə öz həddinizi aşaraq fəsad törətməyin! (Bəqərə surəsi, 60)**

**(O şəxs səndən) ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli məhv etməyə çalışar. Halbuki Allah fitnə-fəsadı sevməz! (Bəqərə surəsi, 205)**

**Yer üzü düzəldikdən sonra, orada fəsad törətməyin... (Əraf surəsi, 56)**

**…Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini azaltmayın. Yer üzü düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu, sizin üçün xeyirlidir! (Əraf surəsi, 85)**

**Allahın sənə verdiyindən özünə axirət qazan. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!" (Qəsəs surəsi, 77)**

Din əxlaqını lazımi kimi qavrayan və yaşayan insan Allahın yuxarıdakı ayələrindəki əmrinə uyğun olaraq qarışıqlıq çıxarmaqdan çəkinər. Quran əxlaqına uyğun hüzur və sükunət dolu, həmişə problemləri həll etməyə çalışan, hadisələri böyütməyən, əksinə, həmişə barışdırıcı mövqedə olar.

Dövrümüzdə dinin bəzi çevrələr tərəfindən səhv başa düşüldüyü və tətbiq olunduğu doğrudur. Halbuki yuxarıdakı Quran ayələrində izah edilən həqiqi dindar modeli cəmiyyətdə yayılarsa, ictimai həyat da çox firavan olar. İnsanlar dövlətə bəslədikləri güvən və hörməti ona itaət etməklə göstərərlər. Polisə və digər təhlükəsizlik güclərinə aqressiv davranan, çətinlik yaradan insanlar olmaz. Əksinə, İslam əxlaqını yaşayan insanlar çox yardımsevər və mərhəmətli olduqlarından təhlükəsizlik qüvvələrinin yanında olar, onların işlərini asanlaşdıracaq şəkildə hərəkət edərlər. Bu əxlaqdakı insanların varlığı sayəsində cəmiyyətdən anarxiya, terror, qarışıqlıq və düşmənçilik aradan qaldırılar. İnsanlar arasındakı qarşıdurma və mübahisələr tamamilə aradan qalxar.

## Din əxlaqı ictimai həyatı necə dəyişdirir?

Dinin varlığı Allah sevgisini özü ilə gətirdiyi üçün bu, bütün insanlara çox müsbət və gözəl təsir edir. Hər kəs Allahın razılığını qazanmaq üçün gözəl əxlaq göstərər,

bir-birini Allah rizası üçün sevər. Bütün cəmiyyətə şəfqət, mərhəmət və gözəllik hakim olar. İnsanlar Allahın əmri istiqamətində xeyirlərdə yarışarlar. Digər tərəfdən Allah qorxusu sayəsində hər kəs əxlaqsızlıqlardan və pisliklərdən çəkinər. Əsrlərlə qarşısı alına bilinməyən hər cür mənfi hallar bir anda bitər. Dinin sevgi və sülhsevər ruhu hər yerə hakim olar. Əlbəttə, burada nəzərdə tutulan Qurandakı həqiqi dindir və bu dinin səmimi olaraq yaşanmasıdır.

Bir cəmiyyətin varlığında ailənin rolu çox böyükdür. Dinin tam mənası ilə yaşandığı mühitdə daha əvvəlki mövzularda ifadə edildiyi kimi, ailə münasibətləri çox gözəlləşər, həqiqi sevgi və hörmət yaşanar. Ailə olmazsa, dövlət və millətin də mənası olmaz. Bunlar bir-birilə çox əlaqəli anlayışlardır. Ailə dağıldıqda millət anlayışı da yox olar, dövlət də zərər görər.

Belə ki, dinin yaşanmadığı cəmiyyətlərdə insanların üsyankar davrandıqları, anarxist hərəkatlara qoşulduqları, dövlətə qarşı cəbhə aldıqları məlum olan həqiqətdir. Xüsusilə də milli və mənəvi dəyərlərin qorunmasının lazım olduğu şəraitlərdə Allah qorxusu olmayan insanların laqeyd davranacaqları qətidir. Milli və mənəvi mənfəətlərlə öz mənfəətləri arasında seçim lazım gəlsə, dindən uzaq insanların asanlıqla nəfslərini seçəcəkləri aydındır. Bu, yeri gəldiyində vətənə və millətə xidmət etməkdən, onun uğrunda mübarizə aparmaqdan qaçmağa, hətta separatçı fəaliyyətlər göstərməyə qədər geniş miqyasda düşünülə bilər.

Halbuki dini yaşayan insanlar üçün dövlət və millət anlayışları çox böyük dəyərə malikdir. Lazım olduğunda dövlət üçün canını təhlükəyə atar, dövlətinin və millətinin mənfəətlərini şəxsi mənfəətlərindən üstün tutarlar. Milli və mənəvi dəyərlərini canla-başla qoruyarlar.

Din əxlaqının yaşandığı bir mühitdə tələbələr də dövlətə, millətə qarşı hörmət və sevgi bəsləyər. Bu

müqəddəs quruluşlara qarşı mübarizə aparmaz, əksinə, dəstək verib, kömək edərlər. Dövləti qoruyan, müdafiə edən məmurlara hörmət edərlər. Cəmiyyət daxilində dövlətə, orduya və polisə qarşı güvən və sahib çıxma duyğusu inkişaf edər. Hər kəs Allahın kitabına iman edər, onda bildirilən gözəl əxlaq anlayışını mənimsəyər, nəticədə də heç kimin sözü çəp gəlməz. Problemlərin həllində hər kəs özünü qarşısındakının yerinə qoyar, mərhəmət edər, hörmətlə yanaşar. Bu şəkildə hər problem qısa müddətdə gözəlliklə həll olar.

Dövlət belə bir mühitdə çox rahat şəkildə idarə olunar. Ölkə daha rifah şəraitdə yaşayar. İdarəçilər də insanlara qarşı ədalətli, mərhəmətli olar, hər cür ədalətsizlik ortadan qalxar. Dolayısilə, özləri də çox hörmət görərlər. Belə dövlətlər çox güclü və sarsılmaz təmələ sahib olurlar.

Din əxlaqı yaşanmadığında isə ata oğula, oğul ataya düşmən olar, qardaş qardaşa qarşı çıxar, işçi müdirə, işə götürən işçiyə düşmən olar. Anarxiya səbəbindən fabriklər, iş yerləri işləməz, ziyan görər. Sosial anarxiya başlayar, kasıb təbəqələr zənginlərə hücum edər, zənginlər kasıbları əllərindən gəldiyi qədər istismar etməyə çalışar. İctimai qarışıqlıqlar, anlaşılmazlıqlar, anarxiya bitməz.

Bütün bunların səbəbi insanların Allah qorxularının olmamasıdır. Allah qorxusu olmayan insanlar rahat şəkildə haqsızlıq və ədalətsizlik edər, cinayət törədər, bənzəri görünməmiş zülm və qəddarlıqlardan çəkinməzlər. Üstəlik vicdan əzabı çəkmədən etdikləri vəhşilikdən peşman olmadıqlarını söyləyərlər. Halbuki Allaha qarşı məsuliyyət hissi olan bir insan bu hərəkətlərə əsla yol verməz.

Din əxlaqı yaşandığında bu saydığımız mənfi halların heç biri qalmaz. Hər şey dinc yolla, gözəlliklə, ədalətlə həll edilər. Qanuna zidd hadisələr olmaz, polis bölmələri demək olar ki, fəaliyyət göstərməz.